# Yüksələn Türkiyənin lideri

**Qardaş Türkiyənin tarixində dünyaya şan və şərəf gətirən, ümumtürk tarixində özünəməxsus yer tutan dövlət başçıları, sərkərdələr, siyasətçilər çox olub. Onlar arasında Rəcəb Tayyib Ərdoğan özünəməxsus yerə malikdir. Bu da təsadüfi deyil.**



Belə ki, cənab Ərdoğan Türkiyədə hakimiyyətə gəldiyi ilk gündən bütün sahələrdə yenilik müşahidə olundu, yüksək liderlik qabiliyyəti ilə qardaş ölkəni inkişaf və tərəqqi yoluna çıxardı, qısa müddətdə dünyada söz sahibinə çevirdi. Bu gün praqmatik siyasətçi kimi tanınan, dünya liderləri arasında, xüsusilə, haqq və ədalət carçısı kimi seçilən, xarizmatik şəxsiyyət kimi beynəlxalq aləmdə böyük nüfuz qazanan Rəcəb Tayyib Ərdoğan bəzi dövlətlərin təzyiqlərinə baxmayaraq Türkiyəni bütün sahələrdə inamla irəliyə aparır, regional və beynəlxalq məsələlərdə ölkənin milli mənafeyinə uyğun müstəqil xarici siyasət yeridir.

**(ardı 8-ci səhifədə)**

# Yüksələn Türkiyənin lideri

(əvvəli 1-ci səhifədə)

## Böyük siyasətə aparan yol

Rəcəb Tayyib Ərdoğanın keçdiyi ömür yoluna nəzər saldıqda onun siyasi arenada uğur qazanmasında birmənalı şəkildə yüksək şəxsi keyfiyyətlərinin aparıcı rol oynadığını görə bilərik.

Ailəsi əslən Türkiyənin Rizə vilayətindən olan Rəcəb Tayyib Ərdoğan 1954-cü il fevralın 26-da İstanbulun Qasımpaşa məhəlləsində dünyaya göz açıb. Türkiyənin 12-ci Prezidenti orta təhsilini Piyalı Paşa məktəbində alıb. Gələcəyin lideri sonra İmam Hatip liseyində oxuyub. Ərdoğan Eyyub liseyində əlavə fərq imtahanı verərək, ali təhsilini Mərmərə Universitetinin İqtisadiyyat və menecment fakültəsində alıb. Uşaqlıqda idmana böyük həvəsi olub. O, 16 illik futbol karyerasına 1980-ci ildə son qoysa da, bu gün Türkiyəyə təzyiq göstərməyə cəhd edən qüvvələrin "qapısına" "qol" vuran dünya lideri kimi böyük şöhrət qazanıb.

## Siyasi mübarizədə uğurlar

Rəcəb Tayyib Ərdoğan gənc yaşlarından siyasi fəaliyyətə üstünlük verib. Hələ universitetdə oxuyarkən Türkiyə Milli Tələbə Assosiyasının ən fəal üzvlərindən olub. 1976-cı ildə Milli Qurtuluş Partiyasının İstanbulun Bəyoğlu rayonunda gənclər özəyinin rəhbəri seçilib. Elə həmin il partiyanın İstanbul gənclər şöbəsinin rəhbəri olub. 1980-ci il sentyabrın 12-də Türkiyədə baş vermiş dövlət çevrilişindən sonra bütün siyasi partiyaların fəaliyyətinə qadağa qoyulub. 1983-cü ildə yaradılan Rifah Partiyası ilə siyasi həyata təkrar atılıb. 1984-cü ildə Ərdoğan partiyanın Bəyoğlu bölməsinin rəhbəri, bir il sonra isə Rifah Partiyasının İstanbul təşkilatının rəhbəri seçilib. Qısa müddətdə partiyanın rəhbər heyətinə seçilənlər arasında Ərdoğanın da adı olub. 1994-cü il martın 27-də İstanbul Bələdiyyəsinin sədri vəzifəsinə namizədliyini irəli sürüb və böyük səs çoxluğu ilə bu posta seçilib. Bələdiyyə sədri vəzifəsində bir sıra uğurlar qazanıb. Xüsusən də, İstanbulun yaşıllaşdırılması, şəhərin su ilə təmin olunması, məişət tullantılarının daşınması, eləcə də bəzi sosial problemlərin həlli Ərdoğanın şöhrətini daha da artırıb. Məhz onun sədrliyi dövründə İstanbulun qazlaşdırılması ilə bağlı layihələr başa çatdırılıb. Onun rəhbərliyi altında 50-dən çox körpü, keçid və yol inşa edilib, bələdiyyənin 2 milyard dollar həcmində borcunun böyük bir hissəsi ödənilib, şəhərə 4 milyard dollar həcmində investisiya yatırılıb.

1997-ci ilin dekabrında Siirtdə keçirilən mitinqdə oxuduğu şeirə görə bələdiyyə sədri vəzifəsindən uzaqlaşdırılıb və 10 ay həbs cəzasına məhkum edilib. Lakin cəmi 4 ay – 1999-cu ilin martından iyul ayına qədər həbsdə qalıb və sonradan azadlığa buraxılıb. 1999-cu ildə bağlanmış Rifah Partiyasının yerinə Fəzilət Partiyası təsis olunub. Ərdoğan bu partiyada islahatçılar qanadına rəhbərlik edib. Ancaq 2000-ci ilin iyulunda Fəzilət Partiyası da qadağan olunub. İslahatçılar isə elə həmin il avqustun 14-də Ədalət və İnkişaf Partiyasını (AKP) yaradıb və rəhbəri də Ərdoğan olub. 2002-ci il noyabrın 3-də parlamentdə keçirilən seçkilərdə AKP 34,29 faiz səslə qalib gəlib. Nəticələr AKP-yə birpartiyalı hökumət formalaşdırmağa imkan verib. 2003-cü ildə Ərdoğan Türkiyə Böyük Millət Məclisinə seçilib və Baş nazir olub. 2014-cü il avqustun 10-da keçirilən prezident seçkilərində seçicilərin 51,79 faizinin səsini toplayaraq Türkiyənin birbaşa səsvermə ilə seçilən ilk prezidenti kimi tarixə düşüb. 2018-ci il iyunun 24-də keçirilən növbəti seçkilərdə isə seçicilərin 52,59 faiz səsini toplayaraq növbəti müddətə ölkənin prezidenti olub.

*"Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı...*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Rəcəb Tayyib Ərdoğana xalq sevgisi 2016-cı il iyulun 15-də daha aydın şəkildə özünü göstərib. Həmin gün xəyanətkar qruplaşma İstanbul və Ankarada dövlət çevrilişinə cəhd göstərib. Ərdoğanın çağırışı ilə xalq küçələrə axın edib və çevrilişə cəhdə imkan verməyib. 15 iyul qardaş Türkiyədə sülhün, demokratiyanın və sabitliyin qələbə qazandığı gün kimi tarixləşib.

## Türk dünyasının birliyi naminə

Bu gün də Osmanlı xofu ilə yaşayan, ksenofobiya, islamafobiya bəlasından xilas ola bilməyən bəzi Qərb ölkələri Türkiyənin sürətli inkişafını narahatlıqla izləsə də və hakimiyyət dəyişikliyi üçün min bir dona girən bəzi qruplaşmalardan vasitə kimi istifadə etsə də, bunlar Rəcəb Tayyib Ərdoğanın güclənməsinə, daha çox xalq sevgisi qazanmasına mane ola bilmir. Prezident Ərdoğan həm də regionda ədalətli nizamlamaya özünün köklü təsirini göstərir. O, lider qətiyyəti, vətənsevərliyi, gözlənilməz addımları ilə türk düşmənlərinə qarşı sərt mövqe nümayiş etdirir, bütün maneələri dəf edərək, Türkiyənin işıqlı gələcəyi, Türk dünyasının birliyi üçün yorulmadan çalışır.

Dünya liderləri arasında onun barəsində reallığı əks etdirən ən səmimi fikirləri, şübhəsiz ki, Prezident İlham Əliyev ifadə edib. Dövlətimizin başçısı 2020-ci il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində deyib: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı...

Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm. Ona bundan sonra da müvəffəqiyyətlər diləmək istəyirəm. Onun sözləri, onun addımları, onun varlığı bütün Türk dünyası üçün önəmlidir və Türk dünyasının birləşməsi, işbirliyinin dərinləşməsi istiqamətində biz bundan sonra da böyük səylər göstərəcəyik".

## Daim haqq-ədalətin yanında

Türkiyə Prezidenti Azərbaycan ilə əlaqələrdə daim türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri Türkiyənin kədəri, Azərbaycanın sevinci Türkiyənin sevincidir" və ulu öndərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarını rəhbər tutur. Onun Azərbaycana xüsusi sevgi bəslədiyini qətiyyətli addımlarından, çıxışlarından da hiss etmək mümkündür. Təkcə onu demək kifayətdir ki, Türkiyə Prezidenti Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi uğrunda apardığı ədalətli Vətən müharibəsinin ilk anlarından ölkəmizə siyasi-mənəvi dəstəyini qəti şəkildə ifadə edib.

Qürurverici haldır ki, 2020-ci il dekabrın 10-da Azadlıq meydanında Vətən müharibəsində Ermənistanı məğlub etmiş Azərbaycan Ordusunun möhtəşəm qələbəyə həsr olunmuş Zəfər paradının tribunasında Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevlə yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da dayanmışdı. Bu, iki ölkə arasında dostluq və qardaşlığın daha bir təntənəsi, Ərdoğanın Azərbaycana öz Vətəni kimi böyük məhəbbət bəsləməsinin növbəti nümunəsi idi.



Azərbaycan və Türkiyə prezidentlərinin 2021-ci ildə 15 İyun – Milli Qurtuluş Günündə Qarabağın tacı Şuşada, 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək, imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" isə bu yaxınlığın, birliyin, doğmalığın, dostluğun və qardaşlığın yeni – qızıl dövrünü yaşadığımızı göstərdi. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edir. Eyni zamanda, bu bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapıb. Bununla yanaşı, tərəfdaşlığın əhəmiyyətini və ölkələrimizin qüdrətini artıran hərbi sənaye sahəsində əməkdaşlıq məsələləri də sənəddə qeyd olunub.

Yeri gəlmişkən qeyd edək ki, Vətən müharibəsində Ermənistan üzərində qazandığımız Qələbədə Türkiyənin hərbi-sənaye kompleksinin istehsalı olan "Bayraktar TB2" pilotsuz uçuş aparatları da xüsusi rol oynadı. Bu PUA-lar həm kəşfiyyat, həm də dəqiq zərbələrin vurulması baxımından çox səmərəli oldu. İkinci Qarabağ müharibəsinə qədər pilotsuz uçuş aparatlarından bu miqyasda, bu cür səmərəli şəkildə istifadə edilməyib.

Bəli, Ərdoğanın diqqəti sayəsində son illər Türkiyənin müdafiə sənayesi də sıçrayışlı inkişaf edir. Onun istehsalı olan hərbi texnika və avadanlıqlar isə dünyanın müxtəlif ölkələri, ilk növbədə dost və qardaş dövlətlər tərəfindən alınır.

## Türk dünyasından böyük dünyaya

Bu məqamda vurğulamaq yerinə düşər ki, Türk dünyasının birlik tarixini yazan iki qardaş ölkənin iki qardaş lideri – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə səyi nəticəsində Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum neft və qaz kəmərləri, Bakı – Tbilisi – Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələr artıq reallaşdırılıb. Bu gün isə Türk dünyası ilə Türkiyə arasında quruda birbaşa nəqliyyat əlaqələrini təmin edəcək, iqtisadi-ticarət münasibətlərini gücləndirəcək, Azərbaycanın Naxçıvan Muxtar Respublikasını blokadadan xilas edəcək növbəti əhəmiyyətli bir hadisənin – Zəngəzur dəhlizinin fəaliyyətə başlaması məsələsi gündəmdədir.

Onu da xatırladaq ki, 2020-ci il fevralın 25-də Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının səkkizinci iclasının yekununda Bakıda səfərdə olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə imzalanan 14 əməkdaşlıq sənədi arasında nəqliyyat sahəsini əhatə edən mühüm sənəd var. Söhbət Qars – İğdır – Naxçıvan dəmir yolunun tikintisinə dair Anlaşma Memorandumundan gedir. Bunu Zəngəzur dəhlizinin açılmasına hazırlıq kimi də qiymətləndirmək olar.

## Nobel Sülh mükafatına təqdimat

Türkiyə Prezidentinin fəaliyyəti, həyata keçirdiyi siyasət həm regiona, həm də dünyaya sülh, əmin-amanlıq vəd edir. Təkcə onu demək kifayətdir ki, bəzi dövlətlərin mələk donuna girmiş şeytan liderlərindən fərqli olaraq, Ərdoğan Rusiya – Ukrayna müharibəsində daha rasional mövqe nümayiş etdirdi, dialoq kanallarını açıq saxlayaraq, ilk gündən diplomatik yolla sülh mühitini bərpa etməyə, bütün dünyanı maraqlandıran problemlərin həllinə çalışdı. Faciələrə yol açacaq qlobal ərzaq böhranının qarşısının alınması üçün məhz Ərdoğanın təşəbbüsü ilə həyata keçirilən dördtərəfli danışıqlar çərçivəsində, Türkiyə, BMT, Rusiya Federasiyası və Türkiyə, BMT, Ukrayna arasında "taxıl sazişi" imzalandı. Dünyanın qida təchizatı və təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edən həmin anlaşmanın həyata keçirilməsi nəticəsində taxıl və qida məhsulları ehtiyac sahiblərinə çatdırıldı, aclıq təhlükəsi ilə üz-üzə qalan bəzi ölkələr bu bəladan xilas edildi. Xilas edən dünya lideri isə heç şübhəsiz, Rəcəb Tayyib Ərdoğan idi.

Məhz buna görə də Pakistan Senatı haqlı olaraq, Rəcəb Tayyib Ərdoğanın Ukrayna böhranının həllində göstərdiyi səylərə görə Nobel Sülh mükafatına namizədliyini irəli sürüb. Bəzi üzdəniraqlar isə buna qarşı çıxırlar. Nəyə görə? Çünki onlar Ərdoğan kimi Türkiyəni inkişaf etdirən, onun regional və beynəlxalq maraqlarını sonadək inadkarlıqla qoruyan, hədələrə və haray-həşirlərə baxmayaraq, milli mənafeyin tələb etdiyi hər şeyi vaxtında reallaşdıran lideri qətiyyən istəmirlər. Türk dünyasına isə məhz Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev kimi qətiyyətli liderlər lazımdır. Elə liderlər ki, ömürlərini hər iki Vətənimizin və bütövlükdə Türk dünyasının gələcəyinə həsr ediblər.

***Rauf KƏNGƏRLİ,***
***jurnalist***

**Naxçıvan**